*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 29-35*

https://doi.org/10.62837/2025.5.29

**ƏLİYEVA İRADƏ BƏBİR QIZI**
**iradaazeri@mail.ru**
**ORCİD: 0009-0000-9925-7890**
**Azərbaycan Tibb Universiteti**

# MƏHKƏMƏ NATİQLİYİ

**Açar sözlər:** *məhkəmə nitqi, loqoqraf, Solon qanunu, təhkimçilik hüququ, ittihamçı, vəkil, üslub universallığı, hüquqi savadlılıq*

Kütlə qarşısında məntiqli, ardıcıl, aydın danışmaq bacarığı insanın həm gündəlik, həm də professional fəaliyyətində böyük rol oynayır. Bu bacarıq ünsiyyət yaratmaq, münasibətləri inkişaf etdirmək, məlumat ötürmək, bilik vermək və s. üçün çox önəmlidir.

Eramızdan əvvəl Yunanıstanda, sonra isə Romada dövlətçiliyin və demokratiyanın inkişafı zamanı siyasi nitqlərlə öz fikir və nəzərlərini kütləyə çatdırmaq və müdafiə etmək üçün natiqlik bacarığına böyük əhəmiyyət verilirdi.

Bu zaman natiqliyin çoxsaylı növlərindən biri olan məhkəmə natiqliyinin inkişafı xüsusi qeyd olunur.

Qorqi, İsokrat isə məhkəmə natiqliyinin nəzəriyyəçiləri olmuşlar. Roma məhkəmə sisteminin nailiyyətləri Siseronun əsərlərində öz əksini tapmışdır.

İsey, Lisi, Siseron məhz natiqliyin bu növündə şöhrət qazanmışlar. Bu dövrdə məhkəmədə ittiham (prokuror) və müdafiə (vəkil) edən vəzifəsini yerinə yetirən şəxslər olmayıb. 501 nəfərdən ibarət olan münsiflər heyyəti səs vermə yolu ilə ittiham olanın cəzasını təyin edirdi. Hər kəs başqasını ittiham edə bilərdi. Lakin özünü müdafiə etmək üçün mübahisə aparmaq, arqumentlər gətirib dediklərini sübut etmək, əks tərəfin sözlərini təkzib etmək bacarığı hər kəsdə olmadığına görə onlar, loqoqraflara – hüquqi təhsil alan və muzdla məhkəmə çıxışlarının mətnlərini yazanlara müraciət ediblər.

Bu nitqlərin məqsədi - hakimlərin ürəyini yumşaltmaq, rəhmə gətirmək, ittiham olanın tərəfinə çəkmək və yalnız bundan sonra onun günahsız olduğuna inandırmaq idi.

Vətəndaşlara kütləvi şəkildə hüquqi məsləhətlər verən e.ə.III əsrdə yaşayan Ponitifik Tiberi Korunkaniy olmuşdur. İnsanlara hüquqlarını başa salan, məhkəmə çəkişmələrində onlara kömək edən Pontifik məşhur olmuşdur.

Məhkəmə natiqliyinin inkişafında Solon qanunu böyük rol oynamışdır. (Afinalı Solon – qanunşünas, siyasi xadim və təfəkkürü, Yunanıstanın yeddi müdriyindən biri). Bu qanuna görə hər bir afinalı məhkəmədə öz səxsi mənafeyini müdafiə etməyi bacarmalı idi.

Məhkəmə prosesi insanları hər zaman maraqlandırıb. Burada həm cinayətin açılması, həm gözəl nitq nümunələri, həm də vəkil və ittihamçı arasında olan mübahisə diqqəti cəlb edirdi.

XIX əsrdə Rusiyada dövrün həm qabaqcıl ziyalıları, alimləri, həm də adi insanlar məşhur vəkillərin, ittihamçıların nitqini dinləmək üçün məhkəmə salonlarına gəlirdilər. Onu da qeyd etmək lazımdır ki, Rusiyada 1861-ci ilə qədər məhkəmə natiqliyi natiqliyin bir növü kimi inkişaf etməmişdi. Yalnız təhkimçilik hüququ ləğv ediləndən sonra 1864-cü ildə bir sıra məhkəmə reformları keçiriləndən sonra burada vəkil, ittihamçı, xalq iclasçıları meydana gəlir və məhkəmə natiqliyi sürətlə inkişaf etməyə başlayır. XIX əsrin II yarısı Rusiya vəkillərinin "qızıl dövrü" adlanır. 50 il ərzində Rusiya məhkəmə natiqliyi öz inkişafında bu sahədə çox irəlidə olan Qərb hüquqşünaslarını arxada qoyur. Rusiyada A.Koni, F.Plevako kimi vəkillər fəaliyyət göstərməyə başlayırlar. Müasir hüquqşünaslar indi də onların nitqlərindən bəhrələnirlər. Rusiyada hər il ölkənin ən uğurlu vəkillərini Fyodor Plevako adına qızıl medalla mükafatlandırırlar. Bu mükafata zarafatla "vəkillərin Oskarı" deyirlər.

Azərbaycanda vətəndaşlarımızın hüquqlarını müdafiə edən, alovlu nitqlər söyləyən məşhur hüquqşünaslar var. Bunlardan Eleonora Rəcəbova, İsaxan Aşurov, Muxtar Mustafayev, Kamandar Nəsibovun adlarını çəkmək olar.

Ümummilli lider H.Əliyev deyirdi ki, dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə. Buna görə qanunların keşiyində dayanan hüquqşünasların rolu böyükdür.

Məhkəmə nitqinin formalarından bir qismi ittihamedici (prokuror və hakimin nitqi), digər qismi isə müdafiəedici (vəkil və müttəhimin nitqi) xarakterində olur. Formasından asılı olmayaraq hər birinin məqsədi eynidir: həqiqəti müəyyən etmək, hakim və məhkəmə iştirakçıların düzgün qərar qəbul etməsi üçüçn arqumentlər gətirmək, inandırmaq, məhkəmə zalında olan dinləyicilərə tərbiyəvi xarakterli təsir göstərmək. Bunun üçün nitq təhlilə, sübutlara, obyektivliliyə, ədalətə, qanunlara əsaslanmalıdır və təsirli, inandırıcı olmalıdır. Natiq biliyinə, fikrinin doğru olmasına əmin olmalıdır, ən zəruri, dəqiq, ifadəli sözlər, münasib nitq formaları tapıb istifadə etməlidir**.** O, hüquqi sənədləri yaxşı bilməli, prosesi dəqiq başa düşməli və qarşı tərəfin arqumentlərini öncədən təxmin edərək onlara cavab hazırlamalıdır.

Dilimizdə funksional üslublar mövcuddur və hər birinin özünəməxsus xüsusiyyətləri var. Məhkəmə nitqi bu baxımdan universaldır, çünki burada bütün üslubların xüsusiyyətləri öz əksini tapır. Məs.:

1) məişət üslubu məhkəmə nitqini aydın və anlaşıqlı edir;

2) elmi üslub xüsusi hüquqi terminlərdən istifadə etməyə imkan yaradır;

3) rəsmi üslub hazır, şablon (basmaqəlib) ifadələrdən istifadə etməyə kömək edir;

4) publisistik üslubun xüsusiyyətləri məlumat, təşviqat, təbliğat məhkəmə nitqinə də məxsusdur;

5) bədii üslubun ifadəliliyi, emossionallığı məhkəmə nitqində böyük rol oynayır.

Üzərində işləyərkən, auditoriya qarşısında çıxışlar edib təcrübə toplayarkən natiq öz üslubunu yaradır. Bu üslubda onun "şəxsiyyəti, fərdi xüsusiyyətləri, ümumi mədəniyyəti, xüsusi bilikləri, həyat təcrübəsi, müəyyən istedadı, natiqlik məharəti ifadə olunur" [1, 41].

Məhkəmə nitqinin daha bir maraqlı xüsusiyyəti var. Belə ki planlaşdırılmış, əvvəlcə hazırlanmış monoloji nitq olaraq, proses zamanı pokuror və vəkil arasında gedən dialoq şəklində özünü göstərir.

Hər bir **m**onoloji nitqdə olduğu kimi məhkəmə nitqi üç hissədən: giriş (başlanğıc), əsas hissə və sonluqdan (nəticə) ibarətdir. Qeyd etmək lazımdır ki, nitqin əvvəlində və sonunda verilən məlumat ən yadda qalandır.

Məhkəmə nitqinin giriş hissəsini aforizmlə, atalar sözü ilə emosional şəkildə baş vermiş cinayətin təsviri ilə başlamaq olar. Məsələn: "Möhtərəm hakimlər! 2024-cü ilin 15 mart tarixində səhər saat 7:15-də Bakı şəhəri, Xətai rayonunun sakinlərini dəhşətli partlayış səsi oyatdı".

Nitqə başlamazdan əvvəl bir neçə saniyəlik fasilə etmək məsləhətdir. Bu başlanğıc fasiləsinə "qross pauza", yəni "böyük" və ya "uzun" pauza deyirlər. Bu pauza:

1) bu an natiqin tribunada yaranan həyəcanı boğmaq imkanı yaradır. Bunu da qeyd etmək lazımdır ki, nitqə yaxşı hazırlaşmaq, məhkəmə işinin materiallarını tam öyrənmək, öz mövqeyinə, özünə inamlı olmaq bu həyəcana qalib gəlməyə kömək edir. A.F.Koni deyirdi: "Həyəcanın ölçüsü sərf olunmuş əmək hazırlığına və ya daha doğrusu, hazırlıq nəticəsinə tərs mütənasibdir [1, 42];

2) Natiq və məhkəmə iştirakçıları arasında vizual kontakt (göz təması) yaradır;

3) Natiqin auditoriyanın diqqətini özünə cəlb etməyə imkan yaradır;

4) Dinləyicilərdə natiq haqqında ilk təəssürat yaradır.

Məhkəmə natiqləri fasilələrdən nəinki nitqin əvvəlində, həm də bir məsələdən digər məsələyə keçid zamanı, vacib məqamları, problemin əsas sübutlarını, ən ciddi etirazları ifadə etmək üçün məharətlə istifadə edirlər. Bu zaman fasilənin məntiqi funksiyası gerçəkləşir və "nitqin dəqiqliyini, düzgünlüyünü, aydınlığını təmin edir" [80].

Fasilənin psixoloji funksiyası da mövcuddur. Bu fasilə nitqi daha təsirli edir, "dinləyicilərin diqqətini, danışanın mətndən əlavə nəzərdə tutduğu və bilavasitə sözlərlə ifadə etmək istəmədiyi cəhətə cəlb edir" [6, 84]. Məs.: "Təqsirləndirən Məmmədov Arif qaranlıqda zərərçəkən Səmədov Samirə arxadan yaxınlaşdı və ... boynuna bıçaqla güclü zərbə endirdi". Natiq fasilə edib fikrini davam edir və bu psixoloji durğu ilə bundan sonra hamının diqqətini deyilənlərə cəlb edir.

Başlanğıc pauzasından sonra natiq təbii tonla yavaş templə “Möhtərəm hakim” sözləri ilə nitqə başlayır. Onu da demək lazımdır ki, məhkəmədə edilən hər bir çıxış bu müraciətlə başlanır.

“Natiqin fəaliyyətində ən məsuliyyətli an – məhkəmə auditoriyasında böyük hazırlıq işinin nəticələrini çıxarılan zaman nitqin söylənməsidir. Məhz bu nitqin söylənməsi zamanı natiqin qarşısında duran məqsədlər reallaşır, buna görə də tam haqla kommunikativ mərhələsinə natiqlik məharətinin kluminasiyası deyilir”[1, 41].

Məhkəmə istintaqı zamanı hər bir iştirakçı (prokuror, vəkil, şahid və s.) məhkəməyə tələblə yox, yalnız xahişlə müraciət edə bilər. Yalnız “ictimaiyyətdə böyük təsir buraxan ağır cinayətdən söhbət gedirsə, dövlət ittihamçısı məhkəməyə müraciət edərək, öz nitqində “tələb edirəm” sözünü işlədə bilər. Bu, məhkəməyə qəti göstəriş, əmr xarakteri daşımamalıdır və “etika qaydalara əməl edərək, cəmiyyətin fikrini ifadə edir” [1, 43].

Məhkəmə nitqinin məzmun və quruluşundan başqa onun etik qaydalara riayət edərək çatdırılması da böyük rol oynayır. Məsələn, törətdiyi cinayətdən asılı olmadan ittiham olana “sən” deyib müraciət etmək, onu təhqir etmək, ələ salmaq qəbul edilməzdir. Vəkil və prokurorun arasında gedən mübarizəyə baxmayaraq onlar bir-biri ilə etik qaydalara riayət edərək davranmalıdırlar. Məhkəmənin icazəsi olmadan yerindən danışmaq, replika atmaq qadağandır. Etik qaydaları pozan hər kəsi məhkəmə zalından xaric edə bilərlər. Proses zamanı zarafat edib gülmək yersizdir. Çünki, burada ölümlə nəticələnən cinayət, insan həyatında baş verən faciə haqqında söhbət gedə bilər.

Məhkəmədə çıxış edən natiq zəngin söz ehtiyatına malik olmalıdır. Əks halda o, fikrini izah etmək üçün söz tapa bilmir. Bu zaman fasilə yaranır, tüfeyli sözlər istifadə olunur.

Nəzərə almaq lazımdır ki, məhkəmə iştirakçılarının hamısı hüquqşünas deyil (şahid, zərərçəkən, təqsirləndirilən şəxs və s.). Bu səbəbdən hüquqi terminlərdən, ixtisar olunmuş sözlərdən istifadə edərkən, onları mütləq izah etmək ya da sinonimlərdən istifadə etmək lazımdır. Bu nitqə verilən əsas tələbi – aydınlığı pozmağa imkan yaratmır.

Məhəkəmə nitqini daha təsirli etmək, hakimləri inandırmaq üçün nitqin ifadəliliyini gücləndirən vasitələrdən istifadə edilir. Bura intonasiya, səsin tonu və tembri, nitqin tempi və s. aiddir.

Nitqi daha təsirli etmək üçün məhkəmə natiqləri metafora, metonimiya, başqa vasitə və bədii üsullardan istifadə edirlər. Məhşur vəkil L.M.Yaxniç öz məhkəmə nitqini belə başlayır: “Möhtərəm hakim! Bir qrup insanlar tərəfindən törədilən cinayət işi canlı orqanizmə bənzəyir: onun başı, ürəyi, əlləri var. Baş bu cinayəti planlaşdırır. Ürək razılaşır və buna dayaq olur. Sözəbaxan əllər bu işi törədir. Bu cinayət işində hər bir kəsin rolunu düzgün təyin etmək üçün kimi baş, kimi ürək, kimi əllər olduğunu dəqiqləşdirmək lazımdır [8, 361].

İfadəlilik və bədii üsullardan başqa məhkəmə natiqləri “bədən dilindən” yəni göz təması, jest, mimika, pozalardan istifadə edirlər. Bu qeyri-verbal vasitələr nitqi canlandırır, deyilənləri daha dəqiq çatdırmağa, anlaşıqlı və təsirli etməyə kömək edir. Əl-qol hərəkətlərindən istifadə etmək, ayrı-ayrı pozalar qəbul etmək yalnız nitq zamanı olar. Natiq susduğu zaman bunları etmək məsləhət deyil. Artıq jestlər də natiqə mane olur, dinləyicinin fikrini əsas məsələdən yayındırır.

Beləliklə, “məhkəmə nitqinə ümumi və hüquqi savadlılıq, nitqin düzgünlüyü, dilin zənginliyi (orijinallıq), qısalıq, sadəlik, asanlıq, aydınlıq və dəqiqlik, bədiilik, emosionallıq xasdır” [1, 46].

**X Ü L A S Ə**

Məqalədə ritorikanın növlərindən biri olan məhkəmə natiqliyinin yaranması və inkişafı məsələlərinə baxılır. Eramızdan əvvəl Yunanıstanda, sonra isə Romada dövlətçiliyin və demokratiyanın inkişafı zamanı natiqliyin çoxsaylı növlərindən biri olan məhkəmə natiqliyinin inkişafı qeyd olunur. Qorqi, İsokrat məhkəmə natiqliyinin nəzəriyyəçiləri olmuşlar. Roma məhkəmə sisteminin nailiyyətləri isə Siseronun əsərlərində öz əksini tapmışdır.

Bu dövrdə məhkəmədə fəaliyyət göstərən lofoqraflar muzdla məhkəmədə çıxış etmək üçün mətnlər yazırdılar.

Məhkəmə natiqliyinin inkişafında siyasətçi və qanunşünas olan Solonun qanunu böyük rol oynamışdır. Bu qanuna görə hər bir afinalı öz şəxsi mənafeyini müdafiə etməyi bacarmalı idi.

Rusiyada yalnız təhkimçilik hüququ ləğv ediləndən sonra 1864-cü ildə məhkəmədə reformlar keçirilir: vəkil, prokuror, xalq iclasçıları meydana gəlir. Ümummilli lider

Heydər Əliyev deyirdi ki, dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə. Buna görə qanunların keşiyində dayanan hüquqşünasların rolu böükdür.

Məhkəmə natiqliyi üslub baxımından unikaldır, çünki burada bütün üslubların xüsusiyyətləri öz əksini tapır. Məhkəmə nitqinin söylənilməsi zaman tələffüz, intonasiya, pauzalar, qeyri-verbal vasitələrdən istifadə böyük rol oynayır.

Beləliklə məhkəmə nitqinə ümumi və hüquqi savadlıq, nitqin zənginliyi, lakonikliyi və emosionallığı xasdır.

**Irada Aliyeva**

**S U M M A R Y**

**INDICIAL RHETORIK**

**Key words:** *judicial, speech, logographer, Solons` law, serfdom, defender, prosecutor, uniqueness of style, judicial literacy*

The article explores the origins and development of one particular type of rhetoric – judicial speech. As early as Ancient Greece, and later in Rome during the rise of statehood and democracy, the formation and evolution of judicial rhetoric

began. Theorists of judicial rhetoric included Gorgias and Isocrates, while the achievements of the Roman judicial system were reflected in the works of cicero.

During this period, logographers began their work – individuals who, for a fee, wrote speeches for use in court.

A significant role in the development of judicial rhetoric was played by the law of the famous politician and author of numerous low`s, Solon of Athens. The law stated: “Every Atenian must be able to defend their interests”.

In Russia, is wasn`t until 1864-following the abolition of serfdom – that a series of judicial reforms took place: lawyers, prosecutors, and jurors began to operate.

Our national leader Heydar Aliyev once said that a state can be shaken in two instances: if the innocent are accused, and if the guilty go unpunished.

Therefore, the role of lawyers, who stand guard over the law, this of great importance.

Judicial speech is stylistically unique, as it reflects the characteristics of all types of speech styles.

When delivering a speech, everything matters: pronunciation, intonation, pauses, and the use of nonverbal communication.

This, judicial speech is marked by both general and legal literacy, richness of language, conciseness, and emotionality.

**Ирада Алиева**

## Р Е З Ю М Е
## СУДЕБНАЯ РИТОРИКА

**Ключевые слова:** *судебная речь, логограф, закон Солона, крепостное право, обвинитель, адвокат, уникальность стиля, юридическая грамотность.*

В статье рассматриваются вопросы возникновения и развития одного из видов риторики – судебной речи. Ещё до нашей эры, в Древней Греции, а потом в Риме в период развития государственности и демократии началось возникновение и развитие одного из многочисленных видов риторики – судебной речи. Теоретиками судебной риторики были Горги, Исократ, а достижения Римской судебной системы нашли своё отражение в произведениях Цицерона.

В этот период начали свою деятельность логографы, которые за плату писали тексты для выступления в суде.

Большую роль в развитии судебной риторики сыграл закон известного политика и автора многочисленных законов Солона Афинского. Закон гласил: «Каждый афинянин должен уметь защитить свои интересы».

В России только в 1864 г., т.е. после отмены крепостного права в суде произошёл ряд реформ: начали свою деятельность адвокаты, прокуроры, судебные заседатели.

Наш национальный лидер Гейдар Алиев говорил, что государство может пошатнуться в 2х случаях: если обвиняют невиновного и, если виновный остаётся безнаказанным. Поэтому роль юристов, стоящих на страже закона, велика.

Судебная речь по своему стилю уникальна, т.к. здесь отражены особенности всех стилей. Во время произнесения речи важно всё: произношение, интонация, паузы, использование невербальных средств общения.

Таким образом, судебной речи присущи общая и юридическая грамотность, богатство речи, её краткость и эмоциальность.

## Ə D Ə B İ Y Y A T

1.Qasımov Ə. Məhkəmə nitqi açıq nitqin növü kimi. "Bakı Universitetinin Xəbərləri" №4, Bakı, 2010;

2. Особенности судебной риторики в советском государстве. Иркутский национальный исследовательский технический университет. Иркутск, 2019, studfile. net /preview/ 9555505/;

3. Ивакина Н.Н. Основы судебного красноречия (Риторика для юристов). Учебное пособие, М., 2000;

4. Судебная речь – жанр ораторского искусства biecom.ru/bloq/sudebnaya – rech – zhanr – oratorskoqo – iskusstva/;

5. Чистилина Д.О. Основы ораторского искусства в уголовном судопроизводстве, Курск, 2022;

6. "Azərbaycan vəkili" jurnalı №6. "Time print", Bakı, 2015;

7. Əliyev İ.K., İsmayılov A.Z. Azərbaycan hüquqşünaslarının məhkəmə çıxışları, Bakı, 1977;

8. Речь адвоката Л.М.Яхнича. Защитительные речи советских адвокатов. Сборник второй. Президиум Московской. Городской коллегии адвокатов. Москва, 1957.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Sevda Kadıyeva**